Kaspi.-2017.-15-17 aprel.-S.23.



■ Əli NƏCƏFXANLI

## VƏTƏN DAĞLARI

Ucaldım, elə ki boyuna baxdım,
Başına dolandım, ruhuna axdım.
Mənim könül taxtım, sevgi paytaxtım,
Eşqimin bəyanı - Vətən dağları!

Burda arzularım haraya düşüb,
Meylim ocaq günə, pir aya düşüb...
Sərhədlər çat kimi araya düşüb,
O yanı - bu yanı Vətən dağları!

Ömürdü - qovğadan, qandan keçilir,
Ürək ağrı çəkir, candan keçilir.
Nə vaxt gen gəzilir, yandan keçilir,
Həsrətə boyanır Vətən dağları.

İgidsən, canı ver torpağa peşkəş,
Vətən qoyulmaz ki qumara, püşkə.
Uçurum dibinə helləyə, keşkə,
Vətənə qıyanı Vətən dağları!

## GÜN KİMİ ŞAXIYAN TÜRK

Köçəri söyləyib şərləmə türkü,
Türk tarix yaradan, damğa vurandı.
Torpağa sevgisi - bəşərin görkü,
Əkib-becərəndi, tikib-qurandı.

Qalalar ucaldıb, saraylar yapıb,
Könlü abad olub, yurdu şen olub.
Türkün dost üzünə açdığı qapı,
Düşmənə qazdığı məzar gen olub.

Doğudan-batıya yürüş eyləyib,
Sürünə-sürünə ömür sürməyib.
Məni əyəməzsən, türkəm! - söyləyib,
Minnət götürməyib, söz götürməyib.

Beşikdən məzara əhdi pozmayan,
Zəfər nəğmələri oxuyandı türk!
Nağıl uydurmayan, yalan yazmayan,
Gündə günəş kimi şaxıyandı türk!

## BELƏSİ ÖLDÜRƏ TƏKİ ADAMI

Getsə də, baxışı, gülüşü qalıb,
Alır dincliyi var nə ki adamın.
Nəzərim şəklində ilişib qalıb,
Belə də çəkərmi şəkil adamı?

Nəfəsi toxunsa, əridər daşı,
Qanlara susayıb kirpiyi, qaşı.
Yaxşı ki, batmaqda deyiləm naşı -
Gözləri dənizdi, çəkir adamı.

Ay evi tikilən şəkil yiyəsi,
Yoxdu camalında zərrəcə kəsir.
Bu boyda kişinin əhədin kəsib,
Edib üz aşiqi, şəkil adamı.

Qəmin şahlığını devirmək olar,
Altını üstünə çevirmək olar,
Sevinə-sevinə can vermək olar,
Beləsi öldürə təki adamı.

## TƏBRİK

Bu gün bayramındı, hədiyyəm - şeir,
Onsuz da nə alsam, yenə də azdı.
Eh, bəlkə heç sənin vecinə deyil,
Amma ürəyimin qanıyla yazdım.

Bircə oxunuşluq ömrü olsa da,
Sözlərim gözünə baxıb sevinsin.
Beytlərin üstünə nurunu sal bir,
Hisslərim işığı çıxıb sevinsin.

Titrəsin əlində ürəyim kimi,
Kağız parçasını bəxtəvər eylə.
İstəsən, cır tulla möhürbəndimi,
Sorsalar, kim yazıb, bilmirəm söylə.

Çiçəklər utanır gül camalından,
Gün kimi, Ay kimi sevirəm səni.
Bilirəm, gözün yox dünya malında,
Bəlkə bəyənərsən bu hədiyyəni...

## ÇƏTİR

"İslanma altında göz yaşlarımın",
Axı qorunmağa çətirin yoxdu.
Başımda çaxmısan ildırım kimi,
Gözümdə bir gilə xətirin yoxdu.

Sənin insafına quraqlıq düşüb,
Mənim də göz yaşım quruyan deyil.
Get, özgə bir eşqə sığın, daldalan,
Ya da sukeçirməz libaslar geyin.

Özünü o yerə qoyma heç, gülüm,
De ki: "yağışdı da..." soruşan olsa.
Çətir götürməyi unutma ancaq
Bir gün qapınızda toy-nişan olsa...

## MƏNİ BU SEVDAYA ÇƏKMƏ TƏZƏDƏN

Yerlərə səpilən başaq kimiyəm,
Bağrımın başını sökmə təzədən.
Süddən ağzı yanan uşaq kimiyəm,
Məni bu sevdaya çəkmə təzədən.

O əsən İlahi bir mehdi, əsdi,
Təzədən əsdirmək cəhdin əbəsdi.
Bir yaxşı söz də var: həvəsdi, bəsdi,
Məni bu sevdaya çəkmə təzədən.

Sənli xatirələr quru çiçəkdir,
Əl vursan, ovulub töküləcəkdir.
O gözəl günlərə sən qələm çəkdin,
Məni bu sevdaya çəkmə təzədən.

Toxunma, qoy elə bu vamda yanım,
Dağılmış hücrəmdə, yuvamda yanım.
Arada keçilməz divar dayanıb,
Məni bu sevdaya çəkmə təzədən.

Əbəsdir gəzməyin izimlə belə?
Oynama duyğumla, hissimlə belə.
Bu qapı açılmaz tilsimlə belə,
Məni bu sevdaya çəkmə təzədən.